

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 48 (24.185)

*15 mart 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## *Almaniya-Azərbaycan əlaqələri yüksək səviyyədədir*

## Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib

Martın 14-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Almaniya Prezidenti **Frank-Valter Ştaynmayer** dedi:

– Əziz həmkarım, cənab Prezident.

Bakıda bizim görüşlərimizi xatırlayıram. Mən səfər edəndə başqa vəzifədə idim. İndi zaman başqadır. Ətrafımızda çətinliklər vardır. Biz vəziyyəti təhlil etdik. İndi Rusiyanın Ukraynaya təcavüzündən bir il keçir. Bunun siyasi mühit, iqtisadi vəziyyət üçün nə kimi təsiri var? Bizim Azərbaycanla Ermənistan arasındakı münaqişə barədə danışmaq şansımız oldu. Hər ikimiz bunun uğura gətirib çıxaracağına, həqiqətən, ümid edirik. Bu, mürəkkəb bir münaqişədir. Ötən müddət ərzində irəliyə doğru bir neçə addım atılıb. Şarl Mişellə danışıqlar prosesi aparılıb.

x x x

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Sağ olun, cənab Prezident. Almaniyaya yenidən səfər etdiyim üçün çox şadam. Sizinlə təkbətək görüşdə müzakirə etdiyimiz kimi, biz Azərbaycan və Ermənistan arasında münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün əlimizdən gələni edəcəyik. Hesab edirəm ki, razılaşma əldə etmək üçün yaxşı şans var, xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşlərdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda. Bu sazişi gectez imzalamaq yaxşı fikirdir. Biz beynəlxalq hüquqa əsaslanan və bizim mövqeyimizə görə sülh sazişinin əsasını təşkil etməli olan beş prinsip işləyib hazırlamışıq.

x x x

Almaniya Prezidenti qeyd etdi ki, dövlətimizin başçısı ilə görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması ilə bağlı müzakirələr aparılıb və o, sülh müqaviləsinin imzalanacağına ümidvardır.



Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin apardığı missiyaya dəstək verdiyini qeyd etdi, bu əsnada tezliklə Brüsseldə görüşün keçiriləcəyinə ümidvar olduğunu dedi. Almaniya Prezidenti əlavə etdi ki, Şarl Mişelin missiyasına hər iki tərəfin etimadı var. O həmçinin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinkenin də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə ciddi dəstək və töhfə verdiyini bildirdi.

Frank-Valter Ştaynmayer Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanma prosesini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin missiyasını, Brüssel sülh gündəliyini dəstəkləyir. Məhz bu əsnada aparılan görüşlərdə, qəbul edilən bəyanatlarda sülh müqaviləsinin və sülh gündəliyi platformasının müəyyən olunduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs məhz Azərbaycan tərəfindən irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın mövqeyi iki yanaşmadan ibarətdir. Birinci yanaşma Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ikinci yanaşma isə Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsidir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfindən müəyyən olunmuş nümayəndə martın 5-də Azərbaycanın Qarabağ bölgəsindən olan sakinlərlə görüşüb, Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağın erməni ictimaiyyətinin nümayəndələri reinteqrasiya məsələləri və bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təmasların davam etdirilməsi üçün Bakıya dəvət olunub.

Azərbaycan Prezidenti İlham Əliyev separatizmin bütün forma və təzahürlərinin qəbuledilməz olduğunu qeyd etdi, separatist meyillərə münasibətdə vahid mövqeyin nümayiş etdirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Laçın yolu ilə bağlı məsələyə toxunaraq bu yolun blokadada olması barədə Ermənistanın iddialarının tamamilə əsassız olduğunu bildirdi, yol üzrə hərəkətin təmin edildiyini, dekabrın 12-dən etibarən Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4 mindən artıq nəqliyyat vasitəsinin, 150-dən çox tibbi yardıma ehtiyacı olan şəxsin keçdiyini vurğuladı.

Prezident İlham Əliyev Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunun və Laçın yolundan hərbi məqsədlər, hərbi daşımalar üçün istifadənin Azərbaycan tərəfini narahat etdiyini bildirdi.

Dövlətimizin başçısı üçtərəfli Bəyanata əsasən Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyini dedi və Laçın yolunun son nöqtəsində, Azərbaycan və Ermənistan sərhədində Azərbaycanın müvafiq sərhəd-keçid məntəqəsinin yaradılması ilə bağlı təklifi barədə məlumat verdi. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə region üçün yeni nəqliyyat dəhlizinin formalaşmasına imkan yaranacağını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın hazırda öz ərazisində dəmir yollarının və avtomobil yollarının qurulması üzrə işləri sürətli şəkildə davam etdirdiyini bildirdi.

Görüşdə regional və qlobal gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib

Martın 14-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib.



## Azərbaycan Prezidenti və Almaniya Kansleri birgə mətbuat konfransı keçiriblər

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

Əvvəlcə Almaniya Kansleri Olaf Şolts mətbuata bəyanatla çıxış etdi.

**Kansler Olaf Şoltsun bəyanatı**

– Hörmətli xanımlar və cənablar.

Mən bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Berlində ürəkdən salamlayıram. Biz elə indicə ikitərəfli əməkdaşlığımızı necə dərinləşdirəcəyimiz haqqında gözəl fikir mübadiləsi apardıq. Biz ötən il ölkələrimiz arasında diplomatik münasibətlərimizin 30 illik yubileyini də qeyd etdik. Azərbaycan və Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində daha da sıx əməkdaşlıq etmək istəyirlər. Bu necə mümkündür və əsasən də ikitərəfli iqtisadi münasibətlərimizi nəzərə alaraq həmçinin bu sualı da biz görüş çərçivəsində müzakirə etdik.

Azərbaycan həm Almaniya, həm Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaşdır. Ölkənin həm Almaniyanın, həm də Avropa İttifaqının enerji təchizatı üçün böyük potensialı mövcuddur, Azərbaycan öz töhfəsini verə bilər və eyni zamanda bərpa olunan enerji də bizim əməkdaşlığımızın bir mövzusudur.

Cənab Prezident Əliyev və mən Rusiyanın Ukraynaya hücumu haqqında da fikir mübadiləsi apardıq. Həmçinin bu hücumun, bu müharibənin Azərbaycana və Cənubi Qafqaza təsiri haqqında da fikir mübadiləsi apardıq. Mən öz mövqeyimizi açıq şəkildə ifadə etdim. Bizim fikrimizcə, Rusiyanın təcavüz müharibəsi beynəlxalq hüquqa açıq şəkildə ziddir. Rusiyanın bu işğalçı müharibəsi yeni bir epoxanın, belə deyək ki, başlanğıcını geosiyasi nöqteyi-nəzərdə işarələyir.

Bizim üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan-Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Təbii ki, burada gərginliyin artması təhlükəsi mövcuddur və son aylar, son həftələr baş verən hadisələr bunu göz qabağına gətirdi. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yenidəncə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəyi nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada təbii ki, öz dəstəyini göstərməyə hazırdır. Bildiyiniz kimi, Avropa İttifaqının Ermənistanda mülki missiyası mövcuddur, Almaniya bu missiyanı dəstəkləyir və bu missiyanın rəhbəri Almaniya tərəfindən təmin edilib.

Cənab Əliyev və mən eyni fikirdəyik ki, bu münaqişə tez bir zamanda öz həllini tapmalıdır. Azərbaycan və Almaniya Avropa Şurasının üzvüdür. Biz həmin bu üzvlüklə üzərimizə öhdəlik götürmüşük ki, insanların hüquqları, demokratiya qorunsun, hüquqi dövlətçilik qorunsun. Biz belə düşünürük ki, demokratiyanın ayrılmaz bir hissəsi canlı mülki cəmiyyətdir. Çünki canlı mülki cəmiyyətdən hər bir cəmiyyət ancaq faydalana bilər.

Hörmətli xanımlar və cənablar, bu çətin dövrdə belə müsbət bir danışığın aparılmasından məmnunluq duydum. Biz cənab Prezidentlə belə qərara gəldik ki, sıx əlaqədə qalaq və əməkdaşlığımızı davam etdirək. Cənab Prezident, buyurun.

x x x



Sonra Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Təşəkkür edirəm, hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Kansler, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Səfər zamanı apardığımız danışıqlar bir daha onu göstərir ki, Almaniya-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Siyasi dialoq müntəzəm olaraq aparılır və əminəm ki, mənim səfərim bizim ikitərəfli münasibətlərimizə çox böyük töhfə verəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bir çox məsələlər bu gün müzakirə olundu, o cümlədən Avropa İttifaqı-Azərbaycan əlaqələri. Bu istiqamətdə çox önəmli addımlar atılır. Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır.

Biz Avropa məkanına qaz ixracatımızı artırırıq. 2021-ci ildə əgər Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm, təqribən, 12 milyard kubmetrə çatacaq. Bu bizim ümumi ixracatımızın yarısı deməkdir, gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik.

Dünən mənim 30-a yaxın almaniyalı iş adamı ilə görüşüm olmuşdur. İki saata yaxın davam edən bu görüşdə Azərbaycana, Azərbaycan iqtisadiyyatına, imkanlara Almaniya biznesi tərəfindən böyük diqqətin şahidi oldum. O cümlədən bərpa olunan enerji növlərinin birgə işlənməsi və istismarı istiqamətində çox gözəl imkanlar var, bu barədə də bu gün biz fikir mübadiləsi apardıq. Azərbaycanın çox geniş bərpa olunan enerji potensialı var. Təkcə Xəzər dənizinin külək enerji potensialı 157 qiqavata bərabərdir və artıq bir neçə kontrakt imzalanıb. Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini də ixrac edən ölkəyə çevriləcəkdir.

Bütövlükdə, biznes imkanları çox genişdir. Mən almaniyalı iş adamlarını Azərbaycana dəvət etdim ki, onlar gəlsinlər və bizim müvafiq qurumlarla təmaslar əsnasında gələcək biznes imkanlarını yaxından incələsinlər.

Cənab Kanslerin dediyi kimi, biz, eyni zamanda regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Ermənistan-Azərbaycan normallaşma prosesi ilə bağlı mən Azərbaycanın mövqeyini bildirdim. İstəyirəm ki, Almaniyanın mətbuat nümayəndələri bilsinlər ki, Azərbaycan 30 ilə yaxın erməni işğalına məruz qalmışdır. Bu işğal və etnik təmizləmə nəticəsində torpaqlarımızın 20 faizə yaxını işğal altına düşdü və bir milyon azərbaycanlı Ermənistan tərəfindən öz doğma torpaqlarından qovulmuşdur və qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Biz iki il yarım bundan əvvəl Vətən müharibəsi nəticəsində öz ləyaqətimizi, ərazi bütövlüyümüzü, hüquqlarımızı döyüş meydanında bərpa etdik, Ermənistanı məğlub etdik və məcbur etdik ki, Ermənistan bizim torpaqlarımızdan çıxsın. Beləliklə, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışmalı olmuşdur.

Onu da bildirməliyəm, əfsuslar olsun ki, vaxtilə Qarabağı Ermənistan kimi tanıyan Ermənistan rəhbərliyi sülh şansını itirmişdir. 2019-cu ildə Ermənistanın bugünkü baş naziri demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə" və bu, faktiki olaraq sülh danışıqlarına vurulan ən böyük zərbə idi. 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsi. Biz bu nida işarəsini 2020-ci il noyabrın 8-də Şuşada qoyduq.

İndi isə sülhün zamanı çatıbdır. Biz Ermənistana sülh təklif etmişik, 5 prinsip əsasında sülh müqaviləsini təklif etmişik. Ümid edirəm ki, Ermənistan bu şansı qaçırmayacaq, nəhayət, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlayacaqdır. Təşəkkür edirəm.

x x x

Sonra mətbuat nümayəndələrinin sualları cavablandırıldı.

**Aparıcı:** – Əgər suallarınız varsa, buyurub verə bilərsiniz.

ARD televiziyasından Nikol Konat: – **Cənab Kanslerə başqa bir mövzu ilə əlaqədar sualım var. Amerikan bank sektoru ilə, "Silicon Valley Bank"la əlaqədardır. Almaniya nöqteyi-nəzərindən çıxış etsək, Sizcə bizim sərmayələrimizin təhlükəsizliyi təmin olunacaq, yoxsa yox?**

**Kansler Olaf Şolts:** – Mən düşünürəm ki, biz 2009-cu ildəki bank böhranına baxsaq, bugünkü durumumuz daha yaxşıdır. Biz ötən böhrandan bir çox şeyi öyrəndik və aktual duruma hazırıq. Ona görə düşünürəm ki, narahatçılığa ehtiyac yoxdur. Amerikanın, Britaniyanın, Almaniyanın reaksiyasına əsasən demək olar ki, hər şey, vəziyyət dəqiq qiymətləndirilir, nəzarət altındadır və müəyyən tədbirləri görmək üçün imkan mövcuddur. Ona görə Almaniyada narahat olmağa ehtiyac yoxdur, mən belə düşünürəm.

REAL televiziyasından **Kamran Qasımov: – Cənab Kansler, sualım Sizədir. Martın 2-də Ermənistanın baş naziri ilə keçirilən mətbuat konfransında bildirdiniz ki, münaqişə Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü, eləcə də Dağlıq Qarabağın öz müqəddəratını təyinetmə hüququ əsasında həll oluna bilər və bu prinsiplər hamı üçün eynidir. Sualım belədir, yəni bu prinsiplər Cənubi Osetiya, Abxaziya, Donbas, Dnestryanı kimi ərazilərə də şamil oluna bilərmi, şamil olunurmu? Təşəkkür edirəm.**

**Kansler Olaf Şolts:** – Sualınıza görə təşəkkür edirəm. Çox asan cavab verə bilərəm. Biz aktual bir münaqişəni götürək. Tutalım Rusiyanın cəhdi, Ukraynanın bir hissəsini zəbt etsin, biz buna heç vaxt yol verməzik, biz bununla razı deyilik və bu, yalançı referendumların nəticəsi kimi Zaporojiyanı, Luhanskı, Xersonu və digər hissələri özünə cəlb etməklə deyil, yəni zəbt etməklə deyil. Biz bununla razı deyilik və biz burada öz mövqeyimizi aydın şəkildə bildirdik ki, BMT-nin Nizamnaməsi buna yol vermir, bu hərəkət beynəlxalq hüquqa ziddir. Eyni zamanda öz mövqeyimizi aydın şəkildə bildirdik ki, axı biz, həmçinin Dağlıq Qarabağ respublika kimi qəbul etmədik, Dağlıq Qarabağ da tanımadıq.

**– Cənab Prezident, sual Sizədir. Siz Avropaya və Almaniyaya qaz ixracı haqqında məlumat verdiniz. Siz hansısa bir miqdarı deyə bilərsinizmi? Tutalım, Almaniyaya və yaxud Avropaya hansı miqdarda qaz göndərə bilərsiniz? Sizin şərtləriniz nədir? Ölkənizin şərtləri nədir? Uzunmüddətli əməkdaşlıqmı olmalıdır? Federal Kanslerə də sualım var. Cənab Kansler, Siz nə deyirsiniz, Qarabağ Azərbaycandırmı? Siz bayaq dediniz Dağlıq Qarabağı respublika kimi tanımırsınız. Qarabağ Azərbaycandırmı?**

**Prezident İlham Əliyev:** – Biz Avropa məkanına təbii qazı iki ildən bir qədər çox zaman kəsiyində ixrac edirik və ildən-ilə bu rəqəmlər artır. Rusiya-Ukrayna müharibəsindən sonra bizə Avropanın 10 ölkəsindən, ən azı 10 ölkəsindən sifarişlər gəldi. Təkliflər gəldi ki, biz o ölkələrə də qaz təchizatını təmin edək, ya da ki artıq qaz təchiz etdiyimiz ölkələrdə qaz həcmini artıraq. Biz keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən 2027-ci ilə qədər 20 milyard kubmetr təbii qazı Avropa məkanına çatdırmağı planlaşdırırıq. Onu da bildirməliyəm ki, bizim qaz ixracatımız təkcə Avropa məkanı ilə məhdudlaşmır. Biz, eyni zamanda bizim üçün ən böyük bazar olan Türkiyəyə və Gürcüstana da qaz ixrac edirik. Ona görə gələcəkdə qazın ixracatını Avropa məkanına çatdırmaq üçün, əlbəttə ki, yeni kontraktlar imzalanmalıdır. Hazırda Azərbaycan qazı Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılır. Bu ildən Rumıniyaya çatdırılmağa başlanmışdır. Bu ilin sonunda Macarıstana ilk qaz təchizatını həyata keçirmək fikrindəyik. Biz hazırda Albaniya hökuməti ilə Albaniyanın qaz təchizat şəbəkəsinin yaradılması və gələcəkdə Albaniyaya da qaz ixracatını təmin etmək üçün danışıqlara başlamışıq. Bizə sifariş edən ölkələr sırasında, eyni zamanda Çex Respublikası, Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya və digər ölkələr var. Təbii ki, Avropada yaranmaqda olan interkonnektorlar da çox mühüm rol oynayır. Nə qədər çox interkonnektor olarsa, bir o qədər də bizim Avropa məkanında qaz ixracat coğrafiyası genişləndirilə bilər. Təbii ki, uzunmüddətli kontraktlar imzalanmalıdır. Çünki yaxşı bilirik ki, Avropada yaşıl keçidə meyillər çox yüksəkdir və biz uzunmüddətli kontraktlarda maraqlıyıq. Ümid edirəm ki, biz bu məsələləri bir-biri ilə uzlaşdıra bilərik. Eyni zamanda Azərbaycanda bərpa olunan enerji növlərinə qoyulan sərmayəni nəzərə alsaq hazırda elektrik enerjisinin istehsalına sərf olunan təbii qaz da Avropaya ixrac edilə bilər

*Ardı 3-cü səhifədə*

və beləliklə, gələcəkdə bizim nəzərdə tutduğumuzdan daha böyük rəqəmlə bizim ixracatımız ölçülə bilər.

**Kansler Olaf Şolts:** – Suala görə təşəkkür edirəm.

Cənab Prezident, Sizin verdiyiniz məlumata görə təşəkkür edirəm. Ürəkaçan məlumatdır və Azərbaycanın Avropaya ixrac edəcəyi miqdar, təbii ki, bizim gələcəyimiz üçün vacibdir və maraqlarımız eynidir. Yenidən bərpa olunan enerji üzrə infrastrukturun inkişafı, tikintisi hər ikimizin marağına uyğundur. Təbii ki, yaşıl enerjinin də Azərbaycandan ixracı üçün potensial mövcuddur. Bu sahədə həm orta, həm də uzunmüddətli əməkdaşlıq mümkündür. Təbii ki, biz tullantılardan azad enerjidə maraqlıyıq və bu sahədə bunu birgə təmin edə bilərik.

İkinci sualla əlaqədar qeyd etmək istərdim ki, Almaniya hələ o vaxt beynəlxalq səviyyədə öz fikrini bildirib və Dağlıq Qarabağı respublika kimi tanımamışdır. Yəni bununla da öz mövqeyini bildirmişdir.

Azərbaycanın İctimai Televiziyasından **Fikrət Doluxanov:**

**– Cənab Kansler, sualım Sizədir. Statistikaya baxsaq, görərik ki, 2021-ci ildə Almaniyanın Ermənistana ixracı 178 milyon avro təşkil edib. 2022-ci ildə isə bu rəqəm artıq 505 milyon avroya çatıb. Eyni zamanda Avropa İttifaqının Ermənistana ixracı 2021-ci ildə 753 milyon avro idisə, 2022-ci ildə artıq bu rəqəm 1,3 milyard avroya çatdı. Maraqdoğuran fakt odur ki, Ermənistanın Rusiyaya ixracı 2021-ci ildə 800 milyon dollar idi. 2022-ci ildə isə bu rəqəm üçqat artdı və faktiki olaraq 2,4 milyard dollara çatdı. Bu təəccüb doğuran rəqəmlər Avropa İttifaqında və Almaniyada araşdırılırmı? Çünki bu rəqəmlər faktiki olaraq Ermənistanın Rusiyaya qarşı qoyulan sanksiyalardan yayınmasını göstərir, sübut edir. Bu, Almaniya və Avropa İttifaqı tərəfindən araşdırılacaqmı və Ermənistan bu fəaliyyətə görə hansı formada cəzalandırıla bilər? Çox sağ olun.**

**Kansler Olaf Şolts:** Sualınıza görə təşəkkür edirəm. Qısaca cavab verim. Biz müxtəlif ölkələrin ixraca-idxala aid müxtəlif rəqəmlərinə baxmışıq, nəzərdən keçirmişik, həm Almaniyada, həm Avropa İttifaqı üzrə. Harada artmalar nəzərə çarpır, təbii ki, yoxlayırıq, iqtisadiyyatın inkişafı iləmi əlaqədardır, nə ilə əlaqədardır? Avropa İttifaqının adi bir rutinasıdır ki, dünyada hər bir ölkəyə diqqətlə baxsın. Bununla əlaqədar müvafiq ofislər var, hansı ki bununla birbaşa məşğuldurlar. Biz hamıya deyirik, hər bir ikitərəfli danışıqlarda da deyirik, xahiş edirik diqqət yetirin ki, sanksiyalardan yan keçilməsin. Avropa Komissiyasının prezidenti də bu fikri açıq şəkildə bildirmişdir. Təşəkkür edirik.

## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri martın 14-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq “Willy Brandt” aeroportunda Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## Naxçıvanda sosial qayğıya ehtiyacı olan 1250 ailəyə bayram sovqatları verilib



Prezident cənab İlham Əliyevin diqqət və tapşırığı ilə ölkəmizdə sosial layihələrin icrası diqqət mərkəzindədir. Bütün bayramlarda və əlamətdar günlərdə aztəminatlı, şəhid, qazi və digər həssas qruplardan olan ailələrə sovqat və yardımlar təqdim olunur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Novruz bayramı ərəfəsində digər bölgələrlə yanaşı, Naxçıvanda da yaşayan 1250 aztəminatlı ailə üçün ərzaq bağlamalarından ibarət yardım təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev bildirdi ki, Konfederasiya 2020-ci ildən etibarən hər il bütün bayramlarda, Azərbaycanın bütün guşələrinə, o cümlədən Bakı şəhərində 76 şəhər və rayona ərzaq yardımları göstərir. Və bu günə qədər Bakıda ailələrə 140 min ədəd ərzaq yardımı paylanıb. O cümlədən bu istiqamətdə atılan addımlarda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da diqqətdə saxlanılır. 2021-ci ildən bu günə qədər 6 mindən çox adama ərzaq yardımları göstərilib. Bakıda hansı əlamətdar tədbir keçirilirsə və hansı humanitar yardım göstərilirsə, Naxçıvanda da bu istiqamətdə addımların atılması artıq günümüzün reallığına çevrilib.

Sədr vurğuladı ki, Naxçıvanda şəhid övladları Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən himayəyə götürülür və yetkinlik yaşına çatana qədər onlara maddi yardım edilir. Həmin uşaqlar gələcəkdə universitetdə təhsil alacaqları müddətdə də bu maddi yardımlar davam edəcək. Naxçıvanda hazırda 14 şəhidin 30 övladı himayəyə götürülüb. Onların ailələrinə də mütəmadi olaraq maddi yardım göstərilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası “YAŞAT” Fonduna milyonlarla vəsait köçürüb və qazilərimizin müalicəsi istiqamətində memorandum imzalanıb. Həmin sənədlərə əsasən “YAŞAT” Fonduna müraciət edən şəhid ailələrinə, qazilərə maddi yardım göstərilir.

Səttar Mehbalıyev onu da qeyd etdi ki, Naxçıvanda şəhid və qazi ailələrinin özünüməşğulluğunun təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 150 min manat vəsait köçürülüb. Həmin vəsait buradakı insanlara paylanılır. Nazirliyə növbəti belə vəsait ödənilib ki, bu vəsait şəhid ailələrinin özünüməşğulluğunun təmin edilməsinə xərclənib. Həmçinin Sahibkarlığın İnkişafı Fonduna da 150 min manat vəsait ayrılıb ki, bu istiqamətdə imzalanan memorandumlara əsasən əldə olunan vəsait şəhid və qazi ailələrinə sərf edilib. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqlar Şurası da imkan daxilində müraciət edən insanlara bu və ya digər yollarla yardım edir. Naxçıvan blokada şəraitində olduğu üçün dəfələrlə vurğulandığı kimi ölkə başçımızın qətiyyətli siyasəti ilə dövlətimiz daim bu diyara kömək göstərir.

**“Şərq qapısı”**

## Naxçıvanda kreditləşmə ilə bağlı mövcud vəziyyətə dair müzakirələr aparılıb

*Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun əməkdaşları Naxçıvan Muxtar Respublikasına səfər ediblər.*



Səfər çərçivəsində qonaqlar əvvəlcə Naxçıvan Biznes Mərkəzində sərgilənən yerli istehsal məhsulları ilə əyani tanış olublar. Məlumat verilib ki, mərkəzin sərgi salonunda muxtar respublikada fəaliyyət göstərən 55 sahibkarlıq subyektinin, 102 müəssisənin 171 adda 1330 çeşiddə məhsulları nümayiş olunur. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da sahibkarlığın bütün parametrlər üzrə inkişafı yerli istehsalın həcminin artmasına və xarici ticarət əlaqələrinin genişlənməsinə töhfə verib, ixracyönümlü məhsul istehsalına nail olunub. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal edilir, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Sonra Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun əməkdaşları ilə “Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu” publik hüquqi şəxsin və muxtar respublikada fəaliyyət göstərən bank təşkilatlarının nümayəndələri arasında işgüzar görüş olub. Görüşdə kreditləşmə ilə bağlı mövcud vəziyyətə dair müzakirələr aparılıb.

Tədbirdə “Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu” publik hüquqi şəxsin idarə heyətinin sədri Novruz Novruzlu qonaqları salamlayıb, görüşün əhəmiyyətindən danışıb.

Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Layihələrin təhlili şöbəsinin müdiri Emin Şirinov sahibkarların kredit imkanlarına əlçatanlığının təmin olunması, bank, bank olmayan kredit təşkilatları tərəfindən təklif edilən güzəştli kredit şərtləri, istehsal, emal, kənd təsərrüfatı, turizm və digər sahələr üzrə sahibkarlar tərəfindən daxil olan müraciətlərin, irəli sürülən layihələrin qiymətləndirilməsi və digər məsələlərlə bağlı qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulmasının, təcrübə mübadiləsinin aparılmasının önəmindən söhbət açıb.

Sonra muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatlarının nümayəndələri ilə tanışlıq olub, sahibkarlar tərəfindən daxil olan müraciətlər dinlənilib, səsləndirilən təkliflərlə bağlı müzakirələr aparılıb, birgə iş baxımından atılacaq növbəti addımlar müəyyənləşdirilib.

Qeyd edək ki, görüşün keçirilməsində əsas məqsəd Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına Naxçıvandakı bank baş ofis və filialları vasitəsilə güzəştli kreditləşməni reallaşdırmaqdır.

✍ **Nail ƏSGƏROV**

## Qoşulmama Hərəkatı ölkələrinin Azərbaycana etimadı böyükdür

### *Bu, ölkəmizə qlobal məsələlərin həllində geniş imkanlar açır*

*Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirildi. Görüşdə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin prezidenti, 3 ölkənin Baş naziri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirdi. Qeyd edək ki, bu görüş dünyanın ən tanınmış media orqanlarında hərtərəfli işıqlandırıldı. Ümumiyyətlə, tədbirə belə böyük marağın olması, ilk növbədə, müzakirə olunan mövzuların aktuallığına əsaslanırdı.*

Məlum məsələdir ki, Azərbaycan 2019-cu ildən bu təşkilata uğurla rəhbərlik edir. Pandemiya ilə əlaqədar olaraq ötən dövrdə Azərbaycan bu platformada bir çox diqqətçəkən təşəbbüslərlə çıxış edib, müxtəlif ölkələrə yardımların təşkil olunmasında aktiv rol oynayıb. Eyni zamanda 2020-ci ildə Hərəkatın COVID-19-a qarşı mübarizə mövzusunda onlayn sammiti keçirilib, BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası təşkil edilib. Ölkəmizin təklifi ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edilib. Bu isə həm Azərbaycanın təşkilata uğurla rəhbərlik etməsindən, həm də təşkilatın nüfuzunun artması baxımından mühüm addımlardan biri kimi qiymətləndirilib.

Bakıda keçirilən növbəti görüşdə də müzakirə olunan məsələlər mühüm aktuallıq kəsb edirdi. Hər şeydən əvvəl ölkə başçısı cənab İlham Əliyev böyük peşəkarlıqla dünyanı narahat edən məsələləri dilə gətirdi. Bildirdi ki, hazırda beynəlxalq qurumların qəbul etdiyi qərarlara laqeyd münasibət, beynəlxalq hüquq və prinsiplərin işləməməsi, bunun da nəticəsində yaranan ikili standartlar müasir dünyada sülhü və təhlükəsizliyi təhdid edən əsas faktorlardır.



Xüsusilə dövlət başçısının ən böyük beynəlxalq qurum olan BMT haqqında səsləndirdiyi fikirlər çox önəmli və dünyanın böyük güclərinə ünvanlanan ismarıclar idi. Sitat: ***“Daha öncə də qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır. 2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi”.***

Beynəlxalq təhlükəsizlik arxitekturasının köklü dəyişikliklərlə üzləşdiyini, multilateralizmin təhlükə altında olduğunu, suverenliyin və ərazi bütövlüyünün pozulmasının, dövlətlərin daxili işlərinə müdaxilə hallarının daha çox müşahidə olunduğunu, aparıcı beynəlxalq təşkilatların qərarlarına ikili standartların tətbiq edildiyini diqqətə çatdıran dövlət başçısı həm də dünyada neokolonializm meylinin artdığını qətiyyətlə bildirdi. Ardınca isə Fransanın Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu söylədi və Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırdı. Həmçinin qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə dəvət etdi. Bu, istər münaqişənin davam etdiyi dövrdə, istərsə də postmünaqişə dövründə ermənipərəst mövqe sərgiləyən Fransaya Azərbaycan rəhbəri tərəfindən vurulan diplomatik şillə idi. Məhz Fransanın simasında bu cür ikili standartların olduğunu bildirən Prezident cənab İlham Əliyev BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsinə çox ehtiyacın olduğunu söyləyərək bununla həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın *“dünya beşdən böyükdür”* sözlərini bir daha təsdiqləmiş oldu.

Prezident cənab İlham Əliyev Ermənistan işğalından azad olunan ərazilər haqqında da iştirakçılara məlumat verdi və bir daha törədilən vandalizm aktlarını dünya ictimaiyyətinin diqqətinə çatdırdı, həyata keçirilən quruculuq tədbirlərindən bəhs etdi. Prezident xüsusilə Azərbaycanın dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələrdən olduğunu bildirdi və qeyd etdi ki, Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxu da bu cür problemdən əziyyət çəkir. Həmçinin Azərbaycan bu görüşdə postpandemiya bərpası dövründə Afrika və bir sıra kiçik ada dövlətlərinə yardımlarla bağlı çağırışlar etdi.

Görüş iştirakçılarının çıxışlarında diqqətçəkən məqamlardan biri o idi ki, hər kəs Azərbaycan Prezidenti cənab İlham Əliyevin səsləndirdiyi fikirlərlə həmrəy olduğunu, Azərbaycanın Qoşulmama Hərəkatına uğurla rəhbərlik etdiyini xüsusilə vurğuladı. Bu isə o deməkdir ki, Qoşulmama Hərəkatı ölkələrinin Azərbaycana etimadı böyükdür. Elə bunun nəticəsi idi ki, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınmışdı. Həmçinin üzv dövlətlərin yekdil rəyinə əsasən ölkəmizin təşkilata sədrliyi 2023-cü ilin sonuna kimi uzadılmışdır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, bu gün Azərbaycan qlobal məsələlərin müzakirə olunduğu böyük bir platformada mühüm nüfuza malikdir. Bu nüfuz isə ona beynəlxalq məsələlərin həllində əhəmiyyətli rol oynamağa imkan verir.

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Muzeyində davam edən tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrün Azərbaycan mədəniyyətinin yüksəliş dövrü kimi qiymətləndirildiyini bildirib.

Vurğulanıb ki, klassik Azərbaycan ədəbiyyatı, incəsənəti məhz dahi rəhbər Heydər Əliyevin dəstəyi, qayğısı, himayədarlığı, gərgin səyləri nəticəsində bütün dünyada tanınıb, xalqımızın milli mədəni irsi sərhədləri aşıb. Görkəmli dövlət xadiminin şəxsi təşəbbüs və böyük səyləri hesabına yaradılmış saraylar, opera, balet, komediya, dram teatrları, xoreoqrafiya məktəbi və onlarla digər mədəniyyət ocaqları qədim ənənələri olan Azərbaycan incəsənətinin palitrasını zənginləşdirib.

Mədəniyyət naziri çıxışı zamanı Ümummilli Liderin Azərbaycan dilinin, milli teatrın, kinonun, heykəltəraşlıq və rəssamlığın, xalçaçılığın, muzeylərin və kitabxanaların inkişafı sahəsində atdığı addımlardan bəhs edib, ölkəmiz müstəqillik əldə etdikdən sonra məhz Ulu Öndərin təşəbbüsü ilə mədəniyyət siyasətinin dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu, sənətə və sənətkara diqqətin artırıldığını bildirib. Qeyd edilib ki, mədəniyyətimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində uğurlu addımlar atılıb, bütün sahələrin inkişafına istiqamətlənmiş əsaslı qanunvericilik bazası yaradılıb. Bu gün əsası Ulu Öndər tərəfindən qoyulmuş mədəniyyətimizin himayədarı olmaq missiyası dahi rəhbərin bütün sahələrdə layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi altında müasir dövrün tələblərinə müvafiq olaraq uğurla davam etdirilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Sərəncam imzalayıb, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq olunub. Bu əlamətdar ildə mədəniyyətimizin böyük himayədarının xatirəsinə hörmət və ehtiram olaraq il ərzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif tədbirlər keçiriləcək.

Tədbir çıxışlarla davam edib.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev "Heydər Əliyev və Azərbaycan teatrı", Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev "Heydər Əliyev və muzeylərimiz", Naxçıvan Dövlət Filarmoniyasının direktoru Ülvi Əhmədov "Heydər Əliyev və Azərbaycan musiqisi", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov "Heydər Əliyev və Azərbaycan kinosu" mövzularında ətraflı çıxış edib, dahi rəhbərin mədəniyyətin bütün sahələrinin inkişafı və intibahındakı misilsiz xidmətlərindən danışıblar.

Sonda tədbir iştirakçıları "Heydər Əliyev. Azərbaycan mədəniyyətinin hamisi" filmini izləyiblər.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

* * *

*Ümummilli Liderin anadan olmasının yüz illiyi münasibətilə Heydər Əliyev Muzeyində "Naxçıvan" Universitetinin Tarix müəllimliyi ixtisasının tələbələri üçün "Ümummilli Liderin siyasi fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda açıq dərs keçirilib.*



Ümumi tarix və beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov dərsdə XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri bütün Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvandakı mürəkkəb ictimai-siyasi hadisələrdən bəhs edib. Bildirib ki, həmin dövrlərdə Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün Ulu Öndərin siyasi təcrübəsinə, diplomatik qabiliyyətinə ehtiyac var idi. Belə ki, onun siyasi fəaliyyəti sayəsində Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılıb, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli Dövlət Bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olunub. O, bütün həyatı boyunca vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmin edilməsi üçün əlindən gələni əsirgəməyib.

Dərsdən sonda tələbələrə dahi şəxsiyyətin zəngin ömür yolunu, çoxcəhətli siyasi və dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barəsində məlumat verilib.

***"Naxçıvan" Universitetinin***
***mətbuat xidməti***

*Naxçıvan Şəhər İcra Hakimiyyətində Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva açıb. Bildirilib ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük qürur hissi ilə qeyd etməkdədir. 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi Azərbaycan xalqının sarsılmaz birliyinin təcəssümü, Vətənini və xalqını canından artıq sevən Ulu Öndərin şəxsiyyətinə milli ehtiramın ifadəsidir.



Qeyd olunub ki, Azərbaycan xalqını Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşduran dahi rəhbər milli-mənəvi dəyərlər sisteminin formalaşmasına əvəzsiz töhfələr vermiş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etmişdir.

Bildirilib ki, məhz Ümummilli Liderin sayəsində milli-mənəvi dəyərlərə laqeyd baxışlar aradan qalxmış, ənənə ilə müasirlik arasında mənəvi-ideoloji körpü yaranmışdır. Ulu Öndər Heydər Əliyev Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və mənəvi birliyinə nail olmuşdur. Bu ideologiyanın əsasında dövlətçiliyin, milli mənafeyinin müdafiə edilməsi, milliyyətindən, dini baxışlarından asılı olmayaraq, hər bir vətəndaşın hüquqlarının qorunması mühüm yer tutur.

İcra Hakimiyyəti başçısının müavini deyib ki, bu gün dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı müasir Azərbaycan ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə böyük uğurlara imza atır. Milli-mənəvi dəyərlərimizin yaşadılmasında və təbliğində genişmiqyaslı fəaliyyəti ilə hər bir kəsin rəğbətini qazanan Heydər Əliyev Fondu da böyük uğurlara nail olmuşdur. Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Onu da qeyd edək ki, mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin təbliğində, irsimizin tanıdılmasında, həmçinin dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun xüsusi xidmətləri vardır.

Tədbirdə tarix üzrə fəlsəfə doktoru Asəf Orucov və filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlunun da çıxışları olub. Qeyd edilib ki, hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu bu günədək qoruyub saxlaya bilmişdir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli-mənəvi irsə sahib olmasıdır. Bu zəngin irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və bu günədək qorunub saxlanılmışdır. Bu baxımdan Ulu Öndər Heydər Əliyev məktəbinin gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir.

Tədbirin sonunda "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı film nümayiş olunub.

**✍ Gülcamal TAHİROVA**

*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə keçirilən seminarı prokurorluğun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov açaraq bildirib ki, haqqında bəhs ediləcək mövzu bu gün ətrafımızda baş verən və ya baş verə biləcək təbii fəlakətləri, eləcə də insan əməlinin nəticəsində yarana biləcək hadisələri əhatə etməkdədir. Hər iki halda qanunvericilikdə davranış və təhlükəsizlik qaydaları nəzərdə tutulub.*

## *"Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları"* mövzusunda seminar olub



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Elşad İbrahimov yanğın təhlükəsizliyi qaydalarının pozulmasının yaratdığı cinayət məsuliyyəti haqqında danışaraq qeyd edib ki, üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurduqda, həmçinin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda cinayət məsuliyyəti yaradır.

Çıxışda bu cür hadisələrin başvermə səbəblərini düzgün müəyyənləşdirmək üçün görülməli zəruri tədbirlər haqqında məlumat verilib. Həmçinin yanğın hadisələri baş verərkən Fövqəladə Hallar Nazirliyinin məsul əməkdaşları tərəfindən hadisə yerinin mühafizəsi düzgün təşkil olunmalı, hadisə şahidlərinin dairəsi vaxtında və tam müəyyən edilməklə hadisənin qəsd və ya ehtiyatsızlıqdan törədilməsinin müəyyən olunması üçün operativlik təmin olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Anar Məmmədov çıxışında Fövqəladə Hallar Nazirliyinin məsul əməkdaşları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar qanunvericiliyinin tələblərinə düzgün əməl edilməsinin vacibliyini vurğulayaraq inzibati xətanın əlamətləri aşkar olunarsa, bu barədə inzibati protokol tərtib olunması və qanunauyğun olaraq tənbeh tədbirləri tətbiq edilməsi ilə bağlı geniş məlumat verib.

Vurğulanıb ki, yetkinlik yaşına çatmayanlar barəsində İnzibati Xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış İnzibati Xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxılır ki, işə baxılmasının yeri və vaxtı ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Seminarda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin və Qaz İstismar Xidmətinin nümayəndələri – Vüqar Məmmədov, Etibar Məmmədov və Elnur Heydərov təbiət hadisələri, o cümlədən zəlzələ zamanı ilkin özünümüdafiə və xilasetmə işləri, məişətdə yanğın zamanı davranış və od söndürən balonlardan istifadə qaydaları, eləcə də dəm qazından zəhərlənmələr haqqında danışıblar. Bildiriblər ki, Azərbaycan Respublikası ərazisində yanğın təhlükəsizliyi tələblərini müəyyən edən qaydalar mövcuddur, bu qaydaların tələblərinə riayət edilməsi məcburidir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**✍ Səbuhi HƏSƏNOV**

# Miqrasiya proseslərinə nəzarət daha da gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər fevral ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, bir yerdən başqa yerə getdikdə olduğu yer və yaşayış yeri üzrə qeydiyyat qaydalarına əməl etməyən, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 35 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 465 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 279-u əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 186 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 49-u elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin *202* Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının e-mail adresinə və ya Xidmətin rəsmi "Facebook" (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və "Instagram" *(nmr_miqrasiya_xidmeti)* sosial şəbəkələrinə ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hər bir fərdin təməl istehlakçı hüquqları vardır və bu hüquqların qorunması dünənimizdə olduğu kimi, bu günümüz və gələcəyimiz üçün də ən aktual məsələlərdən hesab edilməkdədir. Bu hüquqların formalaşması dərin tarixi inkişaf mərhələsi keçərək bugünkü təkmil səviyyəyə gəlib çatıb. İlk dəfə 1985-ci ildə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Qərarla 15 mart – "Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü" kimi qeyd olunmağa başlanmışdır. Eyni zamanda Birləşmiş Millətlər Təşkilatı həmin ildə Ümumdünya İstehlakçı Hüquqları Bəyannaməsini də qəbul etmişdir.*

## İstehlakçı hüquqlarının müdafiəsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərindəndir



15 mart – Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü bütün dünyada olduğu kimi, ölkəmizdə də qeyd edilir. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 19 sentyabr 1995-ci il tarixdə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu ilə qoyulmuş və bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Bu qanuna əsasən istehlakçı şəxsi tələbatını ödəmək məqsədilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir. Bu Qanun Azərbaycan Respublikasının ərazisində istehlakçılar üçün bərabər mühit yaradılması məqsədilə alqı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı ilə istehsalçı, satıcı və alıcı arasında münasibətlərin eyni cür tənzimlənməsinin, habelə istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını və mexanizmini müəyyənləşdirir.

İstehlakçıların hüquq və mənafelərinin qorunması sahəsində görülən mühüm tədbirlərin əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Məhz bu sahə üzrə hüquqi bazanın ardıcıl formalaşdırılması nəticəsində hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. İstehlakçıların aldıqları malların keyfiyyətinə və təhlükəsizliyinə zəmanət verilməsi, onların miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun məlumat əldə etməsi üzrə hüquqları qanunvericiliklə tənzimlənir.

Artıq ölkəmizdə istehlakçı hüquqlarının qorunması dövlətin iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Dövlət istehlakçı hüquqlarının qorunmasına və sahibkarlığın inkişafına xüsusi önəm verərək ölkə iqtisadiyyatında inhisarçılığın qarşısının alınması, ədalətli rəqabət mühitinin formalaşması, habelə istehlakçıların hüquqlarının qorunması sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsinə və möhkəm qanunvericilik bazasının yaradılmasına nail olmuşdur. Atılan mühüm addımlar, qəbul edilmiş qanunlar və icrası uğurla həyata keçirilən Dövlət proqramları ölkə rəhbərinin digər sahələrə olduğu kimi, istehlakçı hüquqlarının qorunması sahəsinə verdiyi böyük önəmin təcəssümüdür. Bu gün ölkəmizdə daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir.

Ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da istehlakçıların hüquqlarının qorunması iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir. İstehlakçıların hüquqlarının müdafiəsini nəzərdə tutan ayrı-ayrı Dövlət proqramlarının, qanunların, qərar və qaydaların muxtar respublikanın aidiyyəti orqanları tərəfindən icrası daim diqqət mərkəzində saxlanılır.

İqtisadi inkişafın səmərəliliyinin artırılmasında keyfiyyətin əsas meyar kimi qəbul olunduğu muxtar respublikada daxili bazarın, istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində təsərrüfat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarəti işinə ciddi önəm verilir. Muxtar respublikada daxili bazarda istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində müvafiq qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş konkret tədbirlər həyata keçirilmişdir. Ardıcıl olaraq yerli və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarətinin diqqətdə saxlanılması nəticəsində hazırda muxtar respublikada əmtəə bazarının keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli məhsullardan qorunması vəzifəsi uğurla icra etməyə çalışılır. Ötən dövrdə həyata keçirilən müxtəlif tədbirlər, istehlakçı hüquqları ilə bağlı kütləvi informasiya vasitələrində maarifləndirici verilişlərin ictimaiyyətə təqdim edilməsi, həmçinin istehsal, ticarət və xidmət, ictimai iaşə obyektlərində çalışan işçilərin maarifləndirilməsi bu baxımdan əhəmiyyətli olmuşdur.

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi strategiyanın davamı olaraq muxtar respublikada görülən işlər istehlakçıların hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaratmışdır. Muxtar respublikada sahibkarlığın inkişafına yönəldilən tədbirlər məşğulluğun təmin olunmasına və sosial rifaha birbaşa təsir edir. Bütün bunlar, nəticə etibarilə, istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin olunmasına şərait yaradan vacib amillərdəndir. Ona görə ki, yerli istehsalın təşkili bir tərəfdən xaricə valyuta axınının qarşısını alaraq idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən məhsulun istehlakçılara daha münasib qiymətlərlə çatdırılmasına imkan yaradır, eyni zamanda mənşəyi məlum olmayan, ekoloji cəhətdən o qədər də təmiz hesab edilməyən məhsulların bazarlara yol açmasının qarşısını alır. Bu da muxtar respublikada daxili bazarın, həmçinin istehlakçıların hüquqlarının qorunması deməkdir.

Ötən il yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlılığı, təsərrüfat subyektlərinin istehsal-xidmət şəraiti, məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğuna nəzarət diqqətdə saxlanılmış, ümumilikdə, məhsul nümunələrinin 895 halda, o cümlədən qida məhsullarının 832 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunmuşdur.



Ticarət, xidmət və istehsal sahələrində fəaliyyət göstərən sahibkarlara rəqabətqabiliyyətli məhsul istehsalı və yerli məhsulların satışına üstünlük verilməsi istiqamətində davamlı olaraq metodiki tövsiyələr verilir. Məhsulun tarladan süfrəyə, istehsalçıdan istehlakçıya çatdırılmasında bütün tələblərə riayət olunmasına çalışılır ki, Naxçıvan əhalisinin ekoloji cəhətdən təmiz, keyfiyyətli və etibarlı ərzaq təminatına nail olunsun.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı diqqətdə saxlanılır. Sahibkarlığın İnkişafı Fondu tərəfindən onların fəaliyyətlərinin stimullaşdırılması və genişləndirilməsi üçün 2022-ci il ərzində 96 ailə təsərrüfatına 1 milyon 441 min 100 manat güzəştli kredit verilmiş, ailə təsərrüfatları müxtəlifölçülü taralarla təmin edilmişdir. Yaradılan şərait və həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının inkişafı ilə yanaşı, həm də istehlakçıların yerli, keyfiyyətli və standartlara uyğun qablaşdırılmış məhsullarla təminatına imkan verir.

Yerli məhsulların satışına və təbliğinə geniş imkanlar açan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində və istehlakçıların artan tələbatının yerli və sağlam məhsullarla qarşılanmasında mühüm rol oynayır. Bu baxımdan muxtar respublikanın şəhər və rayon mərkəzlərində davamlı olaraq yarmarkalar təşkil olunur və məhsulların bazar qiymətlərindən daha sərfəli qiymətlərlə satılmasına nəzarətin həyata keçirilməsi təmin edilir. Bundan başqa, sahibkarlar idxal etdikləri malların istehlak müddətinə, gigiyenik vəziyyətinə, keyfiyyət göstəricilərinə də diqqəti artırmışlar. İstehlakçılar istər ərzaq, istərsə də qeyri-ərzaq məhsulları alarkən yerli istehsala, yerli markaya üstünlük verməlidir. Çünki yerli məhsulun istehlakı həmin məhsulu istehsal edən müəssisənin daha da güclənməsi, ümumilikdə, muxtar respublikanın iqtisadi qüdrətinin artması deməkdir.

İstehlakçıların hüquqlarının qorunması aid dövlət orqanları tərəfindən təmin olunmaqla yanaşı, həm də ümumxalq işidir. Hər birimiz istehlakçı kimi öz hüquqlarımızı yaxşı bilməli və bu işə öz töhfəmizi verməliyik.

**Kamran MEHBALIYEV**
*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

## Naxçıvanda son iki ayda elektronlaşma sahəsində mühüm işlər görülüb, təhlükəsizlik tam təmin edilib



Muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarında elektron xidmətlər göstərilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən muxtar respublikada bir sıra qurumlara aid hazırlanmış internet saytları həm funksionallıq, həm də məzmun cəhətdən təkmilləşdirilib, yeni informasiyalarla zənginləşdirilib. İstifadəçi rahatlığını təmin etmək üçün yeni yaradılan saytlar müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüterinin, planşetinin və ya mobil telefonunun ekran ölçülərinə (responsive dizayn) uyğunlaşdırılıb.

Bunlarla yanaşı, nazirlik digər aidiyyəti qurumlarla olduğu kimi,



Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə də müvafiq sahə üzrə sıx əməkdaşlıq edir. Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarına aid informasiya ehtiyatlarının saxlanması və mühafizəsi, onların dövlət domen zonasında yerləşdirilməsi, təhlükəsizlik auditi məqsədilə nazirliyin mütəxəssisləri üçün təlimlər keçirilib, eləcə də onların kibergigiyena layihəsinə qoşulması təmin edilib. Həmçinin muxtar respublikada "AzstateNet" internet, voice və data şəbəkəsinin qurulması üzrə də işlər həyata keçirilməkdədir.

2023-cü ilin yanvar-fevral ayları ərzində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli Qərarına uyğun olaraq yenilənən dövlət qurumlarının internet səhifələri Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən audit yoxlamaları aparıldıqdan sonra GOV.AZ zonasında yerləşdirilməsi təmin edilib.

Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin *(nnk.gov.az, office@nnk.gov.az)*, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin *(nsupremecourt.gov.az, office@nsupremecourt.gov.az)*, Mərkəzi Seçki Komissiyasının *(nmsk.gov.az, office@nmsk.gov.az)*, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin *(nmincom.gov.az, info@nmincom.gov.az)*, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin *(neco.gov.az, office@neco.gov.az)*, Kənd Təsərrüfatı Nazirliyinin *(nagro.gov.az, office@nagro.gov.az)*, Energetika Dövlət Xidmətinin *(nminenergy.gov.az, office@nminenergy.gov.az)*, Dövlət İmtahan Mərkəzinin *(ndim.gov.az, office@ndim.gov.az)*, Rəssamlar Birliyinin *(nrb.gov.az, info@nrb.gov.az)*, "Şərq qapısı" qəzetinin *(serqqapisi.gov.az, info@serqqapisi.gov.az)* internet səhifələrinin "AzstateNet" şəbəkəsində yerləşdirilməsi təmin edilib.

Həmçinin yenilənən internet səhifələrinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, saytın axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib, saytların domen ünvanları da müvafiq qaydada yenilənməklə *gov.az* domeninə bağlı e-poçt ünvanları ilə təmin edilib.

Nazirliyin mühəndis-proqramçıları tərəfindən muxtar respublikada rayon (şəhər) icra hakimiyyətlərinin, Naxçıvan Muxtar Respublika Prokurorluğunun, Ədliyyə, Daxili İşlər, Təhsil, Səhiyyə, Gənclər və İdman, Mədəniyyət nazirliklərinin, Statistika Komitəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsinin, Turizm Departamentinin, "Naxçıvan Beynəlxalq Hava Limanı" Qapalı Səhmdar Cəmiyyətinin internet səhifələri yenilənməkdədir ki, onların da audit yoxlamaları aparıldıqdan sonra *GOV.AZ* domen zonasına köçürülməsi həyata keçiriləcəkdir. İnternet saytlarının hazırlanması ilə yanaşı, bir sıra qurumlar *GOV.AZ* domeninə bağlı e-poçt ünvanları ilə də təmin olunublar.

Nazirlik tərəfindən muxtar respublikada elektron imzanın tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi istiqamətində də müvafiq tədbirlər həyata keçirilib. 2022-ci il ərzində 12-si vətəndaş, 54-ü sahibkar, 64-ü hüquqi şəxs və 262-si dövlət qurumu olmaqla, ümumilikdə, 392, cari ilin yanvar-fevral aylarında isə 3-ü sahibkar, 10-u hüquqi şəxs və 48-i dövlət qurumu olmaqla, cəmi 61 elektron imza sertifikatı istifadəçilərə təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada elektronlaşma sahəsində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

# Tarixi qardaşlıq nümunəsi – milli rifah və xoşbəxt sabahlar naminə

*Fevral ayının əvvəllərində qardaş Türkiyə Respublikasında baş verən və ona yaxın iri regionda böyük dağıntılara, insan tələfatına, ağır faciələrə səbəb olan zəlzələ fəlakətinin ağrı-acıları hələ də istər qardaş ölkədə, istərsə də Vətənimizin hər bir yerində böyük narahatlığa səbəb oldu. 50 minə yaxın insanın ölümü, 100 minə yaxın insanın yaralanması, yaxud da böyük bir qisminin sağlamlıq imkanlarından ömürlük məhrum olması ilə nəticələnən bu təbii fəlakətin açdığı yaralar bütün türk xalqlarını dərindən sarsıtdı. Belə ağır bir şəraitdə ölkəmizin hər yerindən insanlar türk soydaşlarımıza yardım göstərmək, dərdlərinə məlhəm olmaq, baş verən müsibəti maddi və mənəvi cəhətdən az da olsa, xəfiflətmək üçün canla-başla çalışdılar, sözün əsl mənasında, birlik-bərabərlik, həmrəylik nümayiş etdirdilər. Bu müqəddəs yolda gənclərimizin, habelə qardaş imdadına çatan könüllülərimizin göstərdiyi yardımlar təqdirəlayiq addım kimi bizi də qürurlandırdı, sevindirdi.*

Qəzetimizin son nömrələrindən birində qardaş ölkəyə kömək məqsədilə səfər etmiş bir qrup gənc könüllünün söhbətlərini təqdim etmişdik. Onların gördükləri, şahidi olduqları hadisələri oxuducuqa biz də o ağrı-acını yaşadıq. Bu dəfə də zəlzələ bölgəsində olmuş, türk soydaşlarımıza xidmət göstərmiş bir qrup könüllümüzün müsahibəsini oxucularımıza təqdim edirik.

"Türk qardaşlarımıza xidmət göstərdiyimiz hər gün bizim üçün yaddaqalan olurdu", – deyir Gənclər Fondunun könüllüsü ***Nihad Məmmədov***. Zəlzələdən zərər görmüş



yerlər haqqında belə söhbət açır bizə müsahibimiz: – Naxçıvanın könüllü qrupu olaraq bizə qardaş ölkəyə səfər edəcəyimizlə bağlı məlumat verildikdə çox sevindim. Təbii fəlakət baş verdiyi gündən sosial şəbəkələr və qəzetlər vasitəsilə zəlzələdən zərər görmüş yerlərdə insanların məruz qaldığı ağır hadisələrdən xəbərdar olurduq, bu da bizi çox kədərləndirirdi. Qardaş ölkənin imdadına yetişmək mənim kimi bir çox gəncimizin könlündən keçirdi, oradakı insanlara – uşaqlara, yaşlılara xidmət etməyi qarşımıza məqsəd qoymuşduq. Neçə müddətdir ki, könüllüsü olduğum Gənclər Fondunun bu istiqamətdə böyük bir addım atdığını və bizi qardaş ölkəyə göndərmək istədiyini eşitdikdə mən də bu layihədə iştirak etmək üçün fəallıq göstərdim, nəticədə, fondun dəstəyi ilə bir qrup könüllü Türkiyə Respublikasına yollandıq. Yol boyunca yoldaşlarımızla bu müqəddəs işin plan-proqramını cızırdıq. Biz marşrut xətti üzrə hərəkət etdiyimizdə müəyyən yerlərdə fasilə verməli olurduq. Türkiyə Respublikası ərazisində fasilə zamanı yaxın yaşayış məntəqələrindəki insanlar bizi böyük məmnunluqla qarşılayır, Azərbaycandan gəldiyimizi bildikdə öpüb bağırlarına basırdılar. Uşaqdan-böyüyə hər kəs Vətənimizin türk soydaşlarımıza göstərdiyi yardımları təqdir edir, bu barədə ağızdolusu danışırdı.

Müsahibimiz deyir ki, zəlzələdən zərər görmüş, dağılmış, məhv olmuş binaların, məktəblərin böyük bir qismi Kahramanmaraşda yerləşir. Bu şəhərdə, demək olar ki, bir dənə belə sağlam bina qalmayıb. İnsanlara doğma ocaq olan evlər cəmi bir neçə saniyənin içində məhv olmuş, uşaqlar, körpələr dağıntılar altında qalmışdı. Bu mənzərə, düşünürəm ki, kimliyindən asılı olmayaraq, hər kəsdə dərin kədər hissi yaradırdı. Körpə övladlarını itirmiş analar, atalar, qardaşlarını itirmiş bacılar, hətta ailə üzvlərindən bir nəfəri belə həyatda qalmayan insanların yaşadıqları dəhşəti sözlə ifadə etmək qeyri-mümkündür... Tək ümidimiz qardaş ölkənin tez bir zamanda bu çətinliyin öhdəsindən gəlməsi, nə qədər ağır olsa da, əvvəlki firavan günlərini qazanmasıdır.



Könüllü gənclərimizdən 24 yaşlı ***Səidə Əliyeva*** deyir: – Təbii fəlakətin baş verdiyi ilk gündən könüllü şəkildə zəlzələ olan bölgələrə getmək istəyirdim. Həm mənəvi, həm də səhiyyə işçisi olduğum üçün tibbi baxımdan əlimdən gəldiyi qədər köməklik edə biləcəyimi, elə türk qardaşlarımızın da bizim yardımımıza ehtiyacı olduqlarını düşünürdüm. Buna görə də adımı könüllü gənclər sırasına yazdırdım və müraciətimə müsbət cavab aldım. Fevral ayının 11-dən Azərbaycan könüllüləri 100 nəfərlik heyətlə qardaş Türkiyənin zəlzələdən zərərçəkən bölgələrinə yollandı. Mənim də daxil olduğum 50 nəfərlik qrup isə fevralın 23-də Kahramanmaraş şəhərində qardaşlarımızın imdadına yetişmək üçün yola düşdü. Türkiyə Respublikasında 20 günə yaxın bir müddət ərzində bir çox hadisəyə şahidlik etdik. Səhiyyə işçisi olduğum üçün daha çox yaralılara tibbi xidmət göstərməyə vaxt ayırırdım, digər könüllü yoldaşlarım isə müxtəlif humanitar yardımların çatdırılmasında, zəruri qidaların paylanılmasında canla-başla çalışırdılar. Yaralılara xidmət göstərdiyim üçün ən ağır, necə deyərlər, insan psixologiyasına mənfi təsir edən və heç zaman unudulmayacaq hadisələrin bir çoxu ilə qarşılaşdım. Övladını itirmiş analar, yaxınları dağıntılar altında qalan kimsəsiz, ahıl qocalar... Bütün bunlar çox dəhşətli mənzərə idi. Hətta xəstələri müalicə edərkən bir dərmandan iki ədəd verdiyimdə almırdılar. Deyirdilər ki, bir ədəd bəs edər, digərini ehtiyacı olan başqa xəstələrə verin. Bütün bunlar bizi çox kövrəldirdi. Bunu da deməyi özümə borc bilirəm ki, insanlar nə qədər çətin şəraitdə olsalar belə bizə hər zaman öz doğmaları kimi qayğı ilə yanaşırdılar. Vətəndən uzaq olduğumuz üçün bir parça çörəklərini belə bizimlə bölüşməyə çalışırdılar... Yaşadığımız ağrılı-acılı bütün bu hadisələri həmişə xatırlayacağıq.

Digər bir müsahibimiz ***Şaiq Əhmədov***un dediklərindən: – Qardaş ölkənin zəlzələdən dağılmış, zərərçəkmiş yerlərində



həyat şəraiti çox ağır və çətin vəziyyətdə idi. Dağıntılar altından çıxarılmış insanların psixologiyası isə çox sarsılmış, yaxınlarını, ailə üzvlərini itirmək onları sanki bu həyatdan qoparmışdı. Elə bu səbəbdən də biz çalışırdıq ki, zərərçəkən insanlara, qocalara, ələlxüsus da ata-anasını itirmiş körpələrə yardım göstərərək onların çöhrəsində azacıq da olsa, təbəssüm yarada bilək, ruhlandıraq. İlk baxışda həyat nişanəsindən uzaq, xarabalığı xatırladan şəhərin, evlərin mənzərəsi insanı nə qədər kədər və hüznə qərq etsə də, uşaqların üzündəki təbəssüm, onların gülüş səsləri hər kəsi bu ağır günlərin tezliklə keçib-gedəcəyinə inandırırdı. Orada olduğumuz müddətdə Vətənimizdən gələn yardımların türk qardaşlarımızda necə xoş ovqat yaratdığın görürdük. Azərbaycandan gəldiyimizi bildikdə uşaqdan-böyüyə hər kəs bizi qucaqlayıb təşəkkür edirdi. Bu da bizi qürurlandırırdı. Şübhəsiz ki, bir millət, iki dövlət olaraq böyük itkilər vermiş qardaşlarımızın ən çətin günlərində dəstəkçisi olmağa davam edəcəyik. Bu bizim mənəvi borcumuzdur.

***Ülvi Cəfərxanlı*** da Naxçıvandan Türkiyəyə yola düşən ikinci yardım dəstəsində yer alan gənclərdən biridir. O deyir: – Qardaş ölkədə şəhərləri



ard-arda geridə qoyduqca, zərərçəkən əsas şəhərlərə yaxınlaşdıqca tələfatın dəhşətini daha yaxşı dərk edirdik. Özümüzü buna mənəvi cəhətdən əvvəlcədən hazırlamışdıq. Doğrudan da, Kahramanmaraşa daxil olduqda yıxılmış evlər, binalar, boş qalmış küçələr bizə insanların necə bir dəhşət yaşadığını göstərirdi. Biz orada saat fərq etmədən bütün gücümüzü işimizə həsr etmişdik, hətta gecələri növbə ilə oyaq qalır, insanlara köməklik göstəririrdik. Başıma gəlmiş bir hadisəni sizinlə bölüşmək istəyirəm: – Gecə növbələrindən birində, təqribən, yaşı 45-50 yaşlarında olan bir kişi ilə həmsöhbət oldum. Məlum oldu ki, onun əmisi və əmisinin yoldaşı da zəlzələdə vəfat edib. Kövrək halda onlar haqqında danışarkən telefonunda yaxınlarının dağıntılar altından çıxarılmış cansız şəkillərini göstərdi. O anda mənim üçün sanki zaman dondu. İnsan həyatının nə dəyərli olduğunu və onun saniyələr içində əlindən necə getməsinin mümkünlüyünü dərk etdim. Hələ də zaman-zaman o şəkil xəyalımda canlanır. Unutmayacağımız ağır hadisələrlə yanaşı, xoş xatirələrimiz də oldu. Bizim yaşadığımız çadırla qonşu çadırda bir ailə yaşayırdı. Onların, təxminən, 4-5 yaşlarında Larin adlı balaca bir qızları var idi. Bu balaca qız sanki oradakı hər kəsin övladı idi. Larinin yaşı kiçik olsa da, qəlbi çox böyük idi. Gün ərzində nə zaman yemək yesə, hökmən öz yeməyindən yardım göstərənləri də təklif edirdi. Bu balacanın qayğıkeşliyini, həssaslığını görənlər, biz də daxil olmaqla hər kəs göz yaşlarına qərq olmuşdu.

*Tarix də bu həqiqəti sübuta yetirib ki, Azərbaycan və Türkiyə qardaşlığı zamanın bütün dövrlərində çətinliklərin məngənəsindən qürurla çıxmağa nail olub. Hər iki dövlət ən ağır günlərdə əsl qardaşlıq nümunəsi göstərib, bütün çətinliklərə sinə gərib və heç zaman tutduğu qərarlı yoldan geri dönməyib. Bu gün müsahiblərimizin də söhbətləri bir daha "Bir millət, iki dövlət!" şüarının necə tarixi zərurətdən doğduğunu sübuta yetirir. İnanırıq ki, bu birlik, bərabərlik, milli rifah və xoşbəxt sabahlar naminə atdığımız hər bir addım gələcək nəsillərə əsl qardaşlıq nümunəsi kimi miras qalacaq.*

**Məcid RƏŞADƏTOĞLU**
**Aysel YUSİFZADƏ**

## Fərdi yaradıcılıq sərgisi təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdi Röya Musayevanın fərdi yaradıcılıq sərgisi təşkil olunub.*

Sərgidə Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək diqqətə çatdırıb ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda yaradıcılıq sahəsində fərqlənən bacarıqlı yeniyetmə və gənclərimizin istedadlarının üzə çıxarılması, mənəvi inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətin mədəni həyatındakı iştirakları ölkə başçımız cənab İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu gənclər siyasətinin tərkib hissəsidir.

Tədbirdə çıxış edən rəssamlardan Telman Abdinov, Həmzə Sadiqov gənc rəssamın əl işləri haqqında xoş təəssüratlarını bölüşüblər. Diqqətə çatdırılıb ki, bu cür sərgilərin təşkili gənclərimizin gələcəkdə incəsənətə maraq oyatmasına, eləcə də rəsm yaradıcılığının dərindən öyrənilməsinə şərait yaradır.

Sonda tədbir iştirakçıları sərgidə yer almış rəsm əsərləri ilə tanış olublar. Qeyd edək ki, sərgidə məktəblinin 27 əl işi nümayiş etdirilib.

Sərgi üç gün davam edəcək.

**Bülbül QULİYEVA**


## Elan

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2023-cü il üzrə dövlət büdcəsi vəsaiti hesabına Tədbirlər proqramlarına uyğun nəzərdə tutulan və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeçiliyində olan tibb müəssisələrini dərman vasitələri, sarğı ləvazimatları və materialları, diaqnostik, laborator və digər tibbi təyinatlı vasitələri, ləvazimatları və materialları ilə təmin etmək məqsədilə potensial imkanlara (işçi qüvvəsinə, müvafiq işlər üzrə təcrübəyə, aidiyyəti ixtisasa, maliyyə və texniki imkanlara) malik olan hüquqi və fiziki şəxsləri

***Açıq tenderə dəvət edir***

Lot 1 – Müalicə-profilaktika müəssisələrinin təminatı üçün zəruri olan və Tədbirlər proqramları üçün nəzərdə tutulmuş dərman vasitələrinin, sarğı ləvazimatları və materiallarının, diaqnostik, laborator və digər tibbi təyinatlı vasitələrin, ləvazimatların və materialların satın alınması.

Tender təklifləri "bal" sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi.

Malların təchizat qrafiki müqavilə qüvvəyə mindiyi vaxtdan 31.12.2023-cü il tarixə kimi nəzərdə tutulmuşdur.

Tenderdə iştirak etmək istəyənlər 5 may 2023-cü il saat $15^{00}$ tarixə kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *İddiaçının hüquqi statusunu təsdiq edən sənədlər; – qeydiyyatdan keçdiyi ölkə, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin və digər hüquqi sənədlərin notarial təsdiq olunmuş surətləri, hüquqi ünvanı və bank rekvizitləri;*
- *İddiaçının potensial (peşəkarlıq, təcrübə, texniki və maliyyə imkanları, işçi qüvvəsi və sair) imkanlarının olması haqqında məlumat;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olub-olmaması barədə arayış;*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında arayış;*
- *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (yalnız dərmanlar üçün);*
- *Tender komissiyasının zəruri saydığı digər arayış və sənədlər.*

Tenderdə iştirak haqqı ödəməsinə baxmayaraq, rəsmi müraciət etmiş iddiaçıların ixtisas uyğunluğu ilkin qiymətləndirilərək tender predmetini əhatə etməyən və ixtisası uyğun olmayan iddiaçılar kənarlaşdırılacaqdır. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

**Vəsaiti alan: Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi**
**Hesab N:**
**AZ21NABZ12360100000000005944**
**VÖEN: 0200003621**
**Benefisiar (alan) bank: Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi**
**VÖEN: 0200087741**
**Müxbir hesab:**
**AZ88NABZ01451700000000012944**
**Kod 502906**
**S.W.I.F.T. NABZAZ 2C**

İddiaçılar Azərbaycan dilində hazırladıqları tender təkliflərini və təklifin 1 (bir) faizi məbləğində bank təminatını (təklif zərfləri açıldığı gündən sonra azı 60 bank günü ərzində qüvvədə olmalıdır) bağlı zərfdə 5 may 2023-cü il saat $15^{00}$-a qədər Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi (Ünvan: Naxçıvan şəhəri, Ə.Əliyev 120, tel: 036-545-56-95) təqdim etməlidirlər

Gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi bir ədəd əsli, bir ədəd surəti ikiqat zərfə daxil edilərək imzalanmış, möhürlənmiş şəkildə olmalıdır. Zərfin üzərinə "8 may 2023-cü il saat $15^{00}$-a kimi açılmamalıdır" sözləri yazılmalıdır. Tender təklifləri açıldığı gündən sonra azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Tender təklifləri olan zərflər 8 may 2023-cü il saat $15^{00}$-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçiriləcəkdir.

***Əlaqələndirici şəxs:***
***Musayev Asəf Mütəllim oğlu***
***Telefon: 051-311-12-77, 036-545-56-93***
***Mail:sehiyyemaliyye@gmail.com***
***Tender komissiyası***



### İtmişdir

Şahbuz rayonunun Biçənək kənd sakini Kərimov Mirkənan Mirismayıl oğlunun adına verilmiş 0800107682 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 200